**2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 27 dekabr 2014-cü il tarixli 70 və 71 saylı müraciətlərə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 79 saylı İmişli seçki dairəsi üzrə Yalavac bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Mehdiyev İlham Misli oğlu və Paşayev Xudaş Həsrət oğlu 2014-cü il dekabrın 27-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, həmin seçki dairəsinin 40, 41, 42 və 43 saylı seçki məntəqələrində səsvermə başa çatdıqdan sonra protokolların tərtib edilməsi ilə bağlı qanun pozuntularına yol verildiyini iddia edərək səsvermənin nəticələrinin etibarsız hesab edilməsini xahiş etmişlər.

Şikayətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvləri tərəfindən icraata qəbul edilmişdir.

Müraciətlər ekspert qrupunun üzvləri tərəfindən icraata qəbul edildikdən sonra eyni seçki dairəsindən eyni məzmunlu müraciətlər olduğu müəyyən edilmiş və ekspert qrupu koordinatoru məlumatlandırılmaqla bir icraatda birləşdirilərək araşdırılmış, müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Ərizəçilər 29 dekabr 2014-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək şikayətdən imtina etdiklərini və ərizələrinin baxılmamış saxlanılmasını xahiş etmişlər. Belə olan halda müraciətlərin araşdırılmasına xitam verilməlidir.

Yuxarıda göstərilənlər əsas götürülərək Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 28.4-cü maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 79 saylı İmişli seçki dairəsi üzrə Yalavac bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Mehdiyev İlham Misli oğlu və Paşayev Xudaş Həsrət oğlu şikayətlərindən imtina etdiklərinə görə 27 dekabr 2014-cü il tarixli 70 və 71 saylı müraciətlərin araşdırılmasına xitam verilsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr — Məzahir Pənahov

Katib — Arifə Muxtarova

Katib — Mikayıl Rəhimov